***Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının***

***29 iyul 2016-cı il tarixdə keçirilmiş iclasın protokolundan çıxarış***

---

*29 iyul 2016-cı il tarixdə Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının sədri Rauf Pənahovun sədrliyi ilə növbəti clas keçirilmişdir.*

*İclasda Apellyasiya Şurasının üzvləri Əli Əsgərov, Zülfəli İsmayılov, Sani Nəsibov, Namiq Məmmədov, Katibliyin rəhbəri Zaur Ramazanov və Katibliyin üzvləri Ağası Lətifov, İlqar Əliyev, Teymur Mehdiyev, Ramil Qədimquliyev və Günel Məmmədova iştirak edirdilər.*

***<u>İclasda baxılmış və müzakirə olunmuş məsələlər:</u>***

*1. Vətəndaş Musayev Malik Muxtar oğlunun Apellyasiya Şurasına müraciəti;*

*2. Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının icraatında olan "Aydınlıq-R" şirkətinin, "R.A.N." kiçik müəssisəsinin, "Siqma" kiçik müəssisəsinin və "POSTER" reklam şirkətinin müraciətlərinə baxılması.*

***Bu məsələlərlə bağlı ətraflı müzakirələr aparılmış, çıxışlar dinlənilmiş və yekunda <u>qərara alındı:</u>***

1. *Vətəndaş Musayev Malik Muxtar oğlunun Apellyasiya Şurasına müraciətinə cavab olaraq bildirilsin ki, qeyd edilən məsələ ilə bağlı vəsait Maliyyə Nazirliyi tərəfindən ayrılmadığı üçün həmin məbləği ödəmək Bakı Şəhər İcra Hakimiyyətinin imkanları xaricindədir. Bu məsələ ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurası tərəfindən Maliyyə Nazirliyinə həmin vəsaitin ödənilməsi üçün müraciət edilsin.*

2. *Şura üzvləri "Aydınlıq-R" şirkətinin məsələsi ilə bağlı nəticəli araşdırmalar aparsınlar və Şuranın sədrinə məlumat versinlər.*

3. *"R.A.N" kiçik müəssisəsinin məsələsi şuranın üzvü Zülfəli İsmayılova tapşırılsın. Məsələnin həlli qısa müddətdə sona çatdırılıb nəticəsi barədə bildirilsin.*

4. *"Siqma" kiçik müəssisəsinin Apellyasiya Şurasına müraciəti haqqında məsələdən irəli gələn qərar tezləşdirilib yekunlaşdırılsın.*

5. *"POSTER" reklam şirkətinin şikayətinə ən qısa zamanda cavab verilsin.*